


# HEYDƏR ƏLIYEV FONDUNUN MUĞAMA NÖVBƏTI MÖHTƏŞƏM TÖHFƏSI
# MEHRIBAN XANIM ƏLIYEVA MÜSTƏSNA FƏALIYYƏTI ILƏ MUSIQI INCIMIZIN QORUNMASINA VƏ INKIŞAFINA MÜHÜM TÖHFƏLƏR BƏXŞ EDIR

**Zümrüd MƏMMƏDOVA,**
Muğam müsabiqəsininq alibi
https://doi.org/10.5281/zenodo.21801506

**ARTICLE INFO**

Qabul qilindi: 27-iyul 2026 yil
Ma'qullandi: 29-iyul 2026 yil
Nashr qilindi: 31-iyul 2026 yil

**KEYWORDS**

*Azərbaycan xalqının milli pasportu sayılan, milli ruhunun təzahürü olan qədim muğam sənətimiz çağdaş dövrümüzdə də layiqincə yaşadılır və inkişaf etdirilərək gələcək nəsillərə ötürülür.*

**ABSTRACT**

*Başlıca fəaliyyət istiqamətlərindən biri də mədəniyyətimizin qorunması, inkişafı və dünyada təbliğ edilməsi olan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında qədim muğam sənətimizin yaşadılması və intişar etməsi üçün müstəsna işlər gerçəkləşdirilir.*

*"Muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır. Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, milli ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik - bütün bu hisslər muğam fəlsəfəsinin əsasındadır", - deyə, muğamın fəlsəfi harmoniyasını açan Mehriban xanım Əliyeva muğamı gözəlliyin və məhəbbətin rəmzi sayır.*

Azərbaycan xalqının milli pasportu sayılan, milli ruhunun təzahürü olan qədim muğam sənətimiz çağdaş dövrümüzdə də layiqincə yaşadılır və inkişaf etdirilərək gələcək nəsillərə ötürülür.

Başlıca fəaliyyət istiqamətlərindən biri də mədəniyyətimizin qorunması, inkişafı və dünyada təbliğ edilməsi olan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında qədim muğam sənətimizin yaşadılması və intişar etməsi üçün müstəsna işlər gerçəkləşdirilir.

"Muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır. Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, milli ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik - bütün bu hisslər muğam fəlsəfəsinin əsasındadır", - deyə, muğamın fəlsəfi harmoniyasını açan Mehriban xanım Əliyeva muğamı gözəlliyin və məhəbbətin rəmzi sayır.

**Muğamımız öz beşiyinə qayıtdı**

Dünya musiqisinin incisi olan muğamın inkişafı və təbliği istiqamətində Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu mühüm işlər həyata keçirir. Mehriban xanımın göstərdiyi şəxsi səy və əzmin nəticəsidir ki, Azərbaycan muğamı 2003-cü ildə UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin inciləri siyahısına, eləcə də 2008-ci ildə UNESCO-nun Bəşəriyyətin Qeyri-maddi İrsi üzrə Reprezentativ Siyahısına daxil edilib.

Tarixən Azərbaycanın bütün bölgələrində muğam var olub və bu gün də yaşadılır. Amma heç şübhəsiz muğamımızın beşiyi Qarabağ sayılır. Xan Şuşinski, Seyid Şuşinski, Zülfi

INNOVATIVE ACADEMY

Adıgözəlov, Sara Qədimova, Səxavət Məmmədov, Qədir Rüstəmov, Arif Babayev və daha neçə-neçə ustad xanəndələrimiz Qarabağ muğam məktəbinin yetişdirdiyi unudulmaz sənətkarlardır.

Bu da bir həqiqətdir ki, torpaqlarımızın 30 illik işğalı dövründə "Qarabağ şikəstəsi" muğamı milli himnimiz, Vətənə çağırış marşı kimi qulaqlarımızda daim səslənib.

Elə Vətənə olan tükənməz sevgimiz, muğamlarımızın saf işığından süzülən inamımız idi ki, bizi Qarabağda parlaq Şuşa zəfərinə yetirdi. Bu zəfər təntənəsini illərdən sonra Şuşada, "Xarıbülbül" festivalında "Bayatı-Şiraz"la yaşadıq...

2021-ci ildə Heydər Əliyev Fondunun yenidən Cıdır düzündə təşkil etdiyi "Xarıbülbül" festivalında yeniyetmə xanəndəmiz tərəfindən səsləndirilən "Bayatı-Şiraz" muğamının hər kəsi, bizə qalibiyyət yaşadan Müzəffər Ali Baş Komandan İlham Əliyevi riqqətləndirməsi, kövrəltməsi yaddaşımıza qürurlu və kövrək məqamları ilə silinməz izlərlə həkk olundu.

44 günlük Vətən müharibəsindəki parlaq Zəfərdən sonra Mehriban xanım Əliyeva muğamımızın qorunması, inkişafı və yaşadılması kimi müstəsna missiyanı Qarabağda da müvəffəqiyyətlə həyata keçirir.

Məlum olduğu kimi, Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2008-ci ildə Bakıda Beynəlxalq Muğam Mərkəzi inşa olunub. Eyni zamanda Ağcabədidə, Füzulidə, Sumqayıtda da muğam mərkəzləri istifadəyə verilib.

2018-ci ilin noyabrında Ağdamda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə muğam mərkəzinin açılışı həyata keçirilib. Bu mərkəzlərin açılışı ölkəmizdə muğam sənətinin inkişafına böyük təkan olub.

Ağdam Muğam Mərkəzinin açılışında dövlətimizin başçısı İlham Əliyev də xüsusi qeyd etdi ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın muğama göstərdiyi diqqət, bütün cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Biz son illərdə muğamın demək olar ki, dirçəlməsini görürük: "Biz əsrlər boyu bu gözəl milli sənətimizi yaşatmışıq, inkişaf etdirmişik, ancaq son illərdə muğamın Azərbaycanda inkişafına çox böyük təkan verildi".

İşğaldan azad olunduqdan sonra dövlət başçısı və birinci xanımın iştirakı ilə Ağdam rayonunda Ağdam Muğam Mərkəzinin təməlinin qoyulması isə Qarabağ muğam məktəbinə daha bir misilsiz töhfə oldu. Bu onu göstərir ki, artıq muğamımız öz beşiyinə, "Qarabağ bülbülləri" öz yuvasına qayıdıb və bundan sonra qədim muğamımızın sədaları, xanəndələrimizin şaqraq zənguləleri bu torpaqlarda əbədi çağlayacaq.

**Heydər Əliyev Fondunun tarixi missiyası**

Heydər Əliyev Fondu muğam sənətinin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə 2005-ci ildən "Muğam televiziya müsabiqəsi"nə start verib.

Gənc muğam ifaçılarının muğam sənətinin sirlərinə daha dərindən bələd olması, püxtələşməsi baxımından çox böyük rol oynayan bu müsabiqələr sayəsində ötən dövrdə onlarla gənc muğam ifaçısı yetişib. Bu gənc istedadlar muğamımızı həm də ölkə hüdudlarından kənarda layiqincə təbliğ edirlər və əsrlərin yadigarı olan bu milli sənətimizin dünyada tanıdılmasında mühüm rol oynayırlar.

Həmçinin Fondun təşəbbüsü ilə 2009-cu ildən milli muğam müsabiqələri və beynəlxalq muğam festivalları keçirilir. Bu il təşkil olunan və daha neçə-neçə yeni istedadların üzə çıxmasına vəsilə olan Milli Muğam Müsabiqəsi xanəndə və instrumental ifaçılıq kateqoriyaları üzrə keçirildi.

Eyni zamanda builki Milli Muğam Müsabiqəsinin qalibləri - xanəndə və instrumental ifa

üzrə iştirakçılar ölkəmizi “Muğam aləmi” 6-cı Beynəlxalq Muğam Festivalında təmsil etdilər.

Təntənəli şəkildə keçirilən “Muğam aləmi” 6-cı Beynəlxalq Musiqi Festivalı ilə bağlı ən əlamətdar məqamlardan biri isə festivalın mədəniyyət paytaxtımız Şuşada müxtəlif konsert proqramları ilə davam etdirilməsi oldu. Şuşadakı Yaradıcılıq Mərkəzinin və Xurşidbanu Natəvanın evinin qarşısında, həmçinin Bülbülün ev-muzeyində, eləcə də “Qarabağ” otelinin qarşısındakı parkda konsert proqramları təqdim olundu.

Bir sözlə, Qarabağın mirvarisi Şuşanın müxtəlif məkanlarından, mədəni və qədim tarixi abidələrinin yerləşdiyi ərazilərdən dalğa-dalğa ucalan muğam sədaları bütün dünyaya yayıldı.

Ölkəmizdə bu cür müsabiqələrin və festivalların keçirilməsi xalqımızın milli sənəti olan muğamın dünya çapında tanıdılmasına, dünya mədəniyyəti kontekstində nümayiş etdirilərək yaşadılmasına xidmət edir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə görkəmli ifaçılarımızın disklərinin, kitablarının, albomlarının buraxılması da muğam sənətimizin inkişafına dəyərli töhfələrdir.

Heydər Əliyev Fondu Azərbaycan muğam sənətinin inkişafı və qorunması məqsədilə “Azərbaycan muğamları” layihəsi çərçivəsində “Qarabağ xanəndələri” musiqi albomunu nəşr edib. Alboma daxil olan 3 CD-də Şərqin bənzərsiz muğam ustalarından 24 sənətçinin - Cabbar Qaryağdıoğlunun, Keçəçi oğlu Məhəmmədin, Məşədi Məhəmməd Fərzəliyevin, Məcid Behbudovun, Seyid Şuşinskinin, Xan Şuşinskinin, İslam Abdullayevin, Bülbülün, Zülfü Adıgözəlovun, Əbülfət Əliyevin, müasir muğam ustalarının ifasında səslənən muğam parçaları yer alıb.

Hər zaman muğam sənətinin ustadlarına qayğı və diqqət göstərən, onlarla şəxsən maraqlanan Mehriban xanım Əliyeva mədəniyyətimizin korifey sənətkarlarına yüksək iltifat, hörmət, ehtiram göstərir.

Bu sənətdə olan gənclərin də ən böyük hamisi sayılan Mehriban xanım onların inkişafı üçün əlindən gələn köməyi, dəstəyi göstərir.

**Muğama yeni həyat verildi**

Muğam xalqımızın ruhunun, qəlbinin səsinin harmoniyasından yaranan ecazkar və təkrarolunmaz musiqi incisidir. Əsrlərdən üzübəri, analarımızın laylasından süzülərək günümüzə qədər gələn muğamımızın itib-batma, yox olma təhlükəsi ilə üz-üzə qaldığı çətin, dar məqamları da olub.

1990-cı illərin əvvəllərinin ölkəmizdə yaratdığı çətinliklər, torpaqlarımızın işğalı muğam sənətimizin də tənəzzülünə səbəb olmuş, muğam məktəbi demək olar ki dağılmışdı.

Muğam sənətimizin dirçəldilməsi kimi tarixi missiyanı Mehriban xanım Əliyeva ötən müddətdə şərəflə yerinə yetirdi. Birinci xanımın təşəbbüsləri sayəsində Heydər Əliyev Fondunun bu sahədə həyata keçirdiyi mühüm layihələr nəticəsində muğam sənətimizə yeni həyat bəxş olundu, qədim ənənələrə malik milli muğam sənətimiz yenidən özünə, layiq olduğu uca məqamına yetişdirildi.

Azərbaycan xalqının dünya musiqi xəzinəsində özünəməxsus gövhəri olan muğamlarımız bu gün daha da inkişaf etdirilir və gələcək nəsillərə layiqli şəkildə ötürülür.

Milli sənətimiz, milli sərvətimiz olan muğamın qorunaraq yaşadılması üçün həyata keçirdiyi müstəsna işlər, fundamental layihələr isə heç şübhəsiz Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan muğam sənətinə olan tükənməz sevgisini, eyni zamanda xalqımızın milli sərvətini qorumağı və yaşatmağı özünün mənəvi borcu saymasını təcəssüm etdirir.

1. Elə Mehriban xanımın özünün də ifadə etdiyi kimi: “Təbiət hər zaman təkrarsız canlandığı kimi, muğam sənəti də heç bir sərhədlərə sığışmayan, azad, özü-özündən bəhrələnən bir sənətdir. Muğam sənəti əsrlər boyu Azərbaycan xalqının milli tanıtma nişanlarından biri kimi milli-mədəni irsimizin əsas hissəsini təşkil edib. Bu mənada, bizi millət kimi qoruyub saxlayan bu mədəni irsi, mədəniyyəti yaşatmaq və təbliğ etmək hər birimizin mənəvi borcudur”